**Umudlu, İ.** Rəssamların heyranlıq ünvanı: Səməd Vurğun təsviri sənətdə / İsmayıl Umudlu // Ayna.-2010.- 18 dekabr.- S.19.

Bu günlərdə "Qız Qalası" qalereyasında "Səməd Vurğun təsviri sənətdə" adlı sərginin açılış mərasimi və eyniadlı albomun təqdimatı idi. Sərgi milli şairimizin ev-muzeyinin yaradılmasının 35 illiyinə (1975) həsr olunmuşdu. Eksponat bolluğundan ilk təəssürat beləydi ki, Səməd Vurğunun koloritli obrazlı təsviri sənət sahəsini təmsil edənlərin hər zaman diqqətini cəlb etmiş, sağlığında və ölümündən sonra - lap bizim günlərədək ən çox müraciət edilən sənət adamlarından biri, bəlkə də birincisi olmuşdur.

Səttar Bəhlulzadə, Cəlal Qaryağdı, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Nəcəfqulu İsmayılov, Tahir Salahov, Kamil Xanlarov, Elmira Şahtaxtinskaya, Asəf Cəfərov, Nadir Əbdürrəhmanov, Elcan Şamilov, Altay Hacıyev... Gənc nəsli təmsil edən rəssamlar - Qafar Sarıvəlli, Etibar və Mətanət Aslanovlar, Arif Hüseynov, Afiq Məmmədov, Ədalət Elman və əcnəbi müəlliflər. Daha kimlər yoxdur bu isimlər arasında. Azərbaycanda əlinə fırça və ya tişə alan hər sənətçinin ruhunda bir Səməd Vurğun heyranlığı varmış. Hər kəs bu böyük insanı öz görümündə canlandırmağa çalışıb. Və müvəffəq olublar.

Burada 50-dən çox sənət örnəyi nümayiş etdirilirdi. Onların arasında təsviri və tətbiqi-dekorativ sənət ustalarının yağlı boya ilə işlənmiş rəsm, qrafika əsərləri, xalçalar üstünlük təşkil edir. Muzeyin direktoru, şairin nəvəsi Aygün Vəkilovanın bildirdiyinə görə, Səməd Vurğunun gələn il keçiriləcək 105 illiyi ərəfəsində muzeyin fondlarında qorunan eksponatlar bərpa və konservasiya edilmiş və çərçivələnmişdir. Bütün ölkənin şəhər və kəndlərinin parklarını, binaların qarşısını, mədəniyyət ocaqlarının foyelərini bəzəyən heykəllərinin, büstlərinin geniş spektri və onların hər birinin bədii məna dəyəri ayrı söhbətin mövzusudur.

Ev-muzeyində qorunub saxlanan bu dəyərli əsərlərin bir qismi hələ böyük şairin sağlığında işlənərək ona bağışlanıb, vaxtilə onun mənzilini bəzəyib. Onun vəfatından sonra yaradılanlar da az deyil. Və bunlar zəngin bir sənət kolleksiyası təsiri bağışlayır.
Sənətşünas Ziyadxan Əliyev bu sənət örnəklərini "yaddaqalan obrazlar" adlandırır. O deyir ki, "bu lövhələrdə şairin yarıməsrlik ömrünün müxtəlif anlarına "güzgü tutan" rəssamlar onun təzadlı yaradıcı və insani yaşantılarına düşündürücü bədii görkəm verə bilmişlər. Bu bədii məziyyətləri Səməd Vurğunun qrafik portretlərində də görmək mümkündür".

Sənətşünas deyir ki, Səməd Vurğunun obrazını yaşadan mozaik əsər (T.Ağababayev), xatəmkarlıq nümunəsi (V.Bestuyev və R.Məmmədov), muncuqla yaradılmış portret (naməlum rəssam), xalça-portretlərində (L.Kərimov, Ş.Əlipənahova) da şairə olan sevgi və ehtiram duyulmaqdadır.

Şairin əsərlərinə çəkilən illüstrasiyalarda da rəssamların onun tükənməz ilhamından "boylanan" çox tutumlu obrazlarına ifadəli bədii görüntü verə bildikləri hiss olunur. Görkəmli qrafika ustası A.Hüseynovun silsilə lövhələrini bu mənada şairin duyğulandırıcı misralarının obrazlaşmış ifadəsi hesab etmək olar.

**Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev alboma ön sözündə yazır:**

"Xalq şairi Səməd Vurğunun ev-muzeyi belə əsərlərlə zəngindir. Bu poeziya ocağına gələnlər bu dəyərli sənət əsərlərinin bir qismi ilə tanış olmaq imkanı əldə etsələr

də, gündən-günə çoxalmaqda olan və muzeyin saxlancında qorunan həmin əsərlərin əksəriyyətindən xəbərsizdirlər. Bu albom məhz bu baxımdan son dərəcə qiymətli nəşrdir. İnanıram ki, o həm də Azərbaycan təsviri sənətinin təbliğinə xidmət edəcək".